# KARLOV YEVGENİ NİKOLAYEVİÇ



Yevgeni Karlov 1960-cı il may ayının 31-də Rusiya Federasiyası Tula vilayətinin Dubovka qəsəbəsində anadan olmuşdur. Orta təhsilini doğma yurdunda almışdır. 1 avqust 1977-ci ildə Uzlov rayon Hərbi Komissarlığı tərəfindən ordu sıralarına çağırılmışdır. Y.Karlov ordu- dan tərxis edildikdən sonra Sızran Ali Hərbi Təyyarəçilər Məktəbinə daxil olur, burada Mİ-24 vertolyotunun sirlərinə yiyələnir. 1984-cü ildə təhsilini başa vurur, təlimatçı-təyyarəçi kimi çalışmağa başlamışdır. Azərbaycan Respublikası Silahlı qüvvələri yarandığı vaxt o, burada işləməyi qərara alır və əvvəlcə Səngəçalda, sonra isə Bakıda yerləşən hərbi hissələrdə təlimatçı-pilot kimi çalışmağa başlayır. Milliyyətcə rus olmasına baxmayaraq, ermənilərin Azərbaycana qarşı elan olunmamış müharibəsi zamanı kapitan Yevgeni Karlov xidmət etdiyi hərbi hissənin tərkibində dəfələrlə Ağdam, Ağdərə, Füzuli bölgələrində gedən ağır döyüşlərdə iştirak etmişdir. O, 1992-ci il aprelin 11-də Füzuli istiqamətində gedən döyüşdə həlak olmuşdur. Doğulduğu Dubovka qəsəbəsində dəfn edilmişdir. Ailəli idi. İki övladı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Karlov Yevgeni Nikolayeviç ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.